# Köməkçi texnologiya

## Əas sözlər: Görmə üçün köməkçi məhsullar

| Termin | Anlayış | Şəkil |
|---|---|---|
| **Astiqmatizm** | Astiqmatizmli şəxslər uzağı və yaxını aydın görməkdə çətinlik çəkirlər. |  |
| **Brayl** | Görmə qabiliyyətini itirmiş şəxslər üçün yazılı dil forması. Hərflər qabardılmış nöqtə formaları vasitəsilə əks olunur. Bu nöqtələr barmaqların ucu ilə hiss olunur. | |
| **Katarakta** | Gözün bülluru artıq şəffaf olmadıqda. Bu, bəbək daxilində süd rəngində və ya bulanıq sahə kimi görünür. Katarakta şəxsin görmə qabiliyyətini əhəmiyyətli dərəcədə zəiflədir. |  |
| **Diabet** | Qanda şəkərin səviyyəsinin yüksək olduğu bir xəstəlikdir. Bu, aşağıdakılar da daxil olmaqla bir çox sağlamlıq probleminə səbəb ola bilər: bədənin bəzi hissələrində (xüsusilə ayaqlarda) hissiyyatın azalması və bunun nəticəsində ayaq yaralarının yaranması, görmənin tədricən zəifləməsi, böyrəklərin zədələnməsi, sidik qaçırma və əşyaları xatırlamaqda çətinlik çəkmək. | |
| **Hipermetropiya** | Hipermetropiyası olan şəxslər uzağı yaxşı görürlər. Onlar uzaqda yerləşən əşyaları aydın görə bilirlər, lakin yaxında yerləşən əşyalara fokuslanmaqda çətinlik çəkirlər. |  |
| **Miopiya** | Miopiyası olan şəxslər yaxını yaxşı görürlər. Onlar yaxında yerləşən əşyaları aydın görə bilirlər, lakin uzaqda yerləşən əşyalar bulanıq görünür. |  |
| **Yaxın görmə eynəkləri** | Yaxın görmə üçün eynəklər mətnin və ya əşyaların daha böyük görünməsini (böyüdülməsini) təmin edir. Onlar yaşlılıqda yaranan yaxın görmə problemi (presbiopiya) olan şəxslər üçün istifadə olunur. Bu eynəklər şəxsin qolunun çata bildiyi məsafədə hər hansı bir fəaliyyəti yerinə yetirməsinə kömək edir. |  |

| | | |
|---|---|---|
| **Presbiopiya** | Yaşlılarda yaxın görmə problemi. Presbiopiya olan şəxslər yaxında olan əşyaları görməkdə çətinlik çəkirlər. Presbiopiya yalnız 40 yaş və ya ondan yuxarı yaşda olan şəxslərdə baş verir. |  |
| **Təyinatlı eynəklər** | İxtisaslı göz sağlamlığı üzrə mütəxəssis tərəfindən aparılan hərtərəfli göz müayinəsinin nəticələrinə əsasən şəxsin görmə ehtiyacına uyğun təyin edilən eynəklər. |  |
| **Refraksiya anomaliyası** | Göz almasının forma və ya uzunluğunda dəyişiklik, aydın görmə çətinliyi ilə nəticələnir. Müxtəlif növ refraksiya anomaliyaları müxtəlif görmə problemlərinə səbəb olur. Buraya miyopi, hipermetropiya, presbiopiya və astiqmatizm daxildir. Bunlar düzgün eynək, kontakt linzalar və ya əməliyyatla düzəldilə bilər. | |
| **Görmə** | Görmə qabiliyyəti | |